# Blinkenin bəyanatı ABŞ-nin təcavüzkar maraqlarının ifadəsidir

"ABŞ-nin Dövlət katibi Entoni Blinkenin Azərbaycanda insan hüquqları və azadlıqlarının qorunması ilə bağlı reallığı əks etdirməyən, məqsədli şəkildə situasiyanı təhrif edən bəyanatı beynəlxalq hüququn ümumtanınmış normalarında əksini tapan prinsiplərlə daban-dabana zidd olan, qəbuledilməz davranışdır. Azərbaycanın daxili yurisdiksiyasında olan məsələlərə, o cümlədən ölkəmizdə məhkəmə-hüquq prosesinə və hüququn aliliyinə hörmətsizliklə ifadə olunan bu mövqe, əslində, Birləşmiş Ştatların regiondakı təcavüzkar maraqlarının təmin olunmasına yönələn təzyiq cəhdidir".



Bunu "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib. O qeyd edib ki, Xarici İşlər Nazirliyinin ifadə etdiyi mövqedə də bildirildiyi kimi, bu məqsədli və qərəzli bəyanat ölkəmiz tərəfindən qətiyyətlə pislənilir və rədd edilir. Sirr deyil ki, Bayden Administrasiyasına qədərki dövrdə ABŞ və Azərbaycan arasında siyasi, iqtisadi, enerji və təhlükəsizlik məsələlərini əhatələyən nümunəvi əməkdaşlıq tarixçəsi mövcud olub. Lakin demokratların hakimiyyətə gəlməsi, xüsusən Entoni Blinkenin ABŞ-nin xarici siyasət kursuna rəhbərliyə gətirilməsi ilə Bakı ilə Vaşinqton arasında münasibətlər arzuolunmaz dövrünə qədəm qoyub. Dövlətlərimiz arasında bu və ya digər məsələlər üzrə mübahisəli məqamların yarandığı dövrdə, bir qayda olaraq, qeyri-hökumət təşkilatları və media, o cümlədən qanunvericilik hakimiyyətinin nümayəndələri vasitəsilə ABŞ-nin maraqlarının dilə gətirildiyi vaxtlardan fərqli olaraq Blinken Dövlət katibi kimi xarici siyasət idarəsinin resurslarını Azərbaycana qarşı açıq və diplomatik etiketə sığmayan şəkildə mübarizəyə səfərbər edib, beynəlxalq hüququn aliliyini bir kənara qoyaraq özünün və müavinlərinin bəyanatlarında ölkəmizə münasibətdə yolverilməz fikirlər səsləndirməyi adi hala çevirib.

"Məlumdur ki, bir müddət əvvəl bir qrup konqresmenin ABŞ-nin Dövlət Departamentinə Azərbaycanı hədəf alan tələbləri ehtiva edən məktub göndərməsinə münasibət bildirərkən cənab Prezident də həmin məktubun məhz Blinkenin özü tərəfindən özünə yazıldığını və bununla da onun ölkəmizə münasibətdə nə qədər qərəzli mövqe tutduğunu ifşa etmişdi. Məhz bu kimi davranışlar fonunda Azərbaycan-ABŞ münasibətləri özünün qeyri-məhsuldar xarakteri ilə yadda qalıb və Azərbaycan Xarici İşlər Nazirliyinin də ifadə etdiyi kimi, Bakı və Vaşinqton arasında münasibətlər üçün həmin dövr itirilmiş illər kimi qiymətləndirilir", - deyə B.Məhərrəmov bildirib.

Deputat vurğulayıb ki, Blinkenin ölkəmizdə insan hüquqları ilə bağlı mövcud vəziyyətə münasibətdə ikili standartlarla ehtiva olunan mövqedən çıxış etməsi regionda hər hansı formada dəyişikliyə, yaxud Azərbaycanın qlobal miqyasda nüfuzuna həlledici təsir etmək imkanında deyil: "Əksinə, Blinken bu gedişləri ilə ölkəsinin Cənubi Qafqaz siyasətini iflic vəziyyətinə salır və ABŞ-nin regionda maraqlarını tarixin heç bir dövründə olmadığı qədər zəiflədir. Eyni zamanda Entoni Blinken demokratların ənənəsinə müvafiq olaraq insan haqları, demokratiya meyarları və anlayışlarından siyasi təzyiq alət və vasitəsi kimi istifadə etməklə ölkəsinin qlobal miqyasda imicinə xələl gətirərək ABŞ-nin ümumbəşəri dəyərlərdən sui-istifadə edən subyekt olduğunu göstərir".

B.Məhərrəmov qeyd edib ki, Azərbaycan ümumbəşəri dəyərlərə sadiq qalaraq bütün dünya xalqları ilə, o cümlədən ABŞ ilə sülh və əmin-amanlıq şəraitində yaşamaqda və əməkdaşlıq etməkdə maraqlıdır. Ötən dövr ərzində işğala və təcavüzə açıq formada dəstək verən, ölkəmizin ərazi bütövlüyünü və suveren hüquqlarını bərpa etməsindən sonra təcavüzkar mahiyyətini gizlətməyən demokratlardan fərqli olaraq yeni administrasiyanın buraxılan səhvlərin nəticələrini aradan qaldırmaqla həm ABŞ və Azərbaycan arasında qarşılıqlı dostluq və tərəfdaşlıq münasibətlərinin bərpa olunmasına, həm də regionda sağlam maraqlarının təmin olunmasına çalışacağına ümid edirik.



*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.-13 dekabr (№ 275).- S.7.